# Şəhid ömrü qısa olsa da...




Vətən savaşında minlərlə igidimiz qazi olmuş, 3 minə yaxın qəhrəmanımız şəhidlik zirvəsinə ucalmışdır. Bu müqəddəs savaşın qəhrəmanlarından biri də Murad Mahmud oğlu Hüseynzadədir.

M.Hüseynzadə 1998-ci il yanvar ayının 8-də Lənkəranın Şağlaser kəndində anadan olub. 2015-ci ildə orta təhsilini başa vuran Murad, eyni zamanda, 2013-cü ildən 2015-ci ilə kimi Lənkəran şəhərindəki Zabitlər evində "Tibb təlimatçısı" ixtisasına yiyələnib. 2016-cı ilin yanvar ayında həqiqi hərbi xidmətə çağırılıb, 2017-ci ilin iyulunda xidmətini başa vurub. Əsgərlikdən qayıdan Murad ixtisası üzrə Lənkəran Regional Narkoloji Xəstəxanasında əmək fəaliyyətinə başlayıb.

Vətən savaşının ikinci günündən Murad Hüseynzadə tibb işçisi geyimini döyüş forması ilə dəyişib. Muradın sorağı əvvəlcə Cəbrayıldan, daha sonra Qubadlıdan gəlib. Murad müharibənin 33-cü günündə Qubadlı uğrunda gedən döyüşlərdə şəhid olub. Səngərdə əsgər yoldaşlarının yaralarını sarıyan sanitar-döyüşçünün bir gün öz qanıyla vətənin yarasını sarıyacağına heç kəs inana bilmirdi.

Uşaqlıq dostu Cavid Qasımovun dediklərindən: "Mən Muradla sonuncu dəfə Vətən müharibəsinin başlanmasından 10 gün əvvəl həmsöhbət olmuşdum. Bəlkə də bu bir təsadüf idi, amma həmin günü heç vaxt yadımdan çıxara bilməyəcəyəm. Orduya səfərbər olunmuşdum. Gedəcəyim ərazinin yolu Muradın çalışdığı səhra xəstəxanasının yanından keçdiyindən onunla yol yoldaşı olub hal-əhval tutmaq, ötüb-keçənləri bir daha yada salmaq qismətim oldu. Aramızda baş tutan dialoq, əsasən, ümumi məsələlərdən ibarət idi. Murad işindən zövq almasından, mən isə ona təhsilimdən danışdıq. Mənzil başına çatanda "Nə sözün-tapşırığın olsa, çəkinib-eləmə, qardaşın qulluğunda hazırdır", - deyərək vidalaşdı. Sən demə, bu, Muradla son görüşümüz imiş".

Bu gün Murad Hüseynzadənin xatirəsi doğulub boya-başa çatdığı doğma Şağlaser kəndinin sakinləri, təhsil aldığı məktəblərin müəllim və şagird kollektivləri tərəfindən əziz tutulur. Kənd qəbiristanlığında onun məzarı üstündə abidə ucaldılıb. Bu günlərdə isə M.Əliyev adına Lənkəran Tarix-Diyarşünaslıq Muzeyində şəhidin ömür yolunu əks etdirən guşə açılıb. Guşədə igid döyüşçü Murad Hüseynzadənin 22 illik ömür yolunu əks etdirən eksponatlar və fotoşəkillər yer alıb.

Murad Hüseynzadə ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

***Ağaddin BABAYEV,***
***Lənkəran***

Azərbaycan.- 2021.- 3 noyabr.- S.5.